# DAHİDƏN dərs alan DAHİ

Onlar elm və mədəniyyət xadimlərimiz tərəfindən dönə-dönə araşdırılmış, bu barədə cild-cild kitablar yazılmışdır. Bu tarixi gündə iftixar və qürur hissi ilə qeyd etməliyik ki, bu böyük sənətkar hansı işə qol qoymuşdursa ədalətlə qoymuş, ürəkdən qoymuş, hamıdan fərqlənmiş, mədəniyyətimizi işıqlı sabahlara aparacaq bütün yeni cığır və yolların ilk bələdçisi olmuşdur. Onun bir müəllim kimi pedaqoji fəaliyyəti də eyni dərəcədə təqdir və təbliğ edilməlidir. Görün, onun tələbələri kimlər olmuşdur: Qara Qarayev, Fikrət Əmirov, Niyazi və s. və i.a.



Misal var, deyərlər: "Əsil müəllim odur ki, şagirdi ondan bir boy da yuxarı dayansın". Sanki bu müdrik fikirlər dahi bəstəkarımız Üzeyir bəyə və onun dahi tələbəsi Qara Qarayevə istinadən söylənmişdir.

Fikir verin, 1946-cı ildə hər ikisi birdən SSRİ Dövlət Mükafatına layiq görülüb! 1948-ci ildə Qara Qarayevin ikinci dəfə SSRİ Dövlət Mükafatı adı alması ilə Üzeyir Hacıbəyovun həyata vaxtsız "əlvida" söyləməsi eyni dövrə təsadüf edib.

Bu cür arqumentləri çox gətirmək olar. Və təbii ki, yuxarıdakı fikirləri xatırlamaqda onların hər birinin təsiri vardır. Ancaq onların heç birini əsas səbəb kimi göstərmək düzgün deyildir.

Aşağıdakı qeydlərimiz şəxsi xarakter daşıyır və bununla hansısa sənətkarın ürəyinə dəymək, şöhrətinə kölgə salmaq fikrindən uzağıq: "Əgər Azərbaycan musiqisini silsilə zirvələrdən ibarət uca dağa bənzətsək, inamla söyləyə bilərik ki, Üzeyir zirvəsinə ən yaxın bəlkə də Qara Qarayevdir..."

Etiraz edənlərin nəzərinə çatdıracağımız bir neçə məqam fikrimizdə yanılmadığımızı sübut edən ən yaxşı dəlildir. Bəri başdan deyək ki, bu təhlili apararkən biz heç də Üzeyir Hacıbəyovla Qara Qarayevi qarşı-qarşıya qoymaq istəmirik.

Bu cür düşünmək nə qədər sadəlövhlükdürsə, bundan qürur hissi duymamaq bir o qədər xəbis, mənən kasıb olmaqdır.

Hər iki bəstəkar SSRİ xalq artisti kimi yüksək ada layiq görülüb. Üzeyir Hacıbəyov 51, Qara Qarayev isə 41 yaşında!

Hər iki bəstəkar Azərbaycan Elmlər Akademiyasının akademiki olub. Üzeyir Hacıbəyov 60, Qara Qarayev 41 yaşında.

Hər iki bəstəkar iki dəfə SSRİ Dövlət mükafatı laureatı olub. Üzeyir Hacıbəyov 56 və 61 yaşlarında, Qara Qarayev isə iki dəfə erkən - 28 və 35 yaşında!

Hər iki bəstəkar...

Yox! Bu böyük sevinci dadmaq xoşbəxtliyi yalnız Qara Qarayevə nəsib olub! Dahi bəstəkar 60 yaşında Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb. Bundan təxminən 11 il əvvəl isə heç kəsin nail olmadığı zirvəni fəth edib. 1967-ci ildə 49 yaşında ikən Qara Qarayev Azərbaycanda ədəbiyyat, mədəniyyət, incəsənət, elm və maarif xadimləri arasında ilk və son həmyerlimizdir ki, Lenin mükafatına layiq görülüb.

Təbii ki, bu uğurlar elə-belə qazanılmayıb.







*Bu yazını başlarkən nədənsə mərhum xalq şairimiz, Sosialist Əməyi Qəhrəmanı Rəsul Rzanın dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyov haqqında söylədiyi unudulmaz fikirləri xatırladıq: "Üzeyir bəy elə sənətkardır ki, onun adı tərif yükü götürmür. O hər hansı tərif pilləsindən yuxarıda duran bir simadır..." Azərbaycan mədəniyyətinin tərəqqi və təbliği istiqamətində Üzeyir bəyin bir bəstəkar, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim kimi gördüyü nəhəng işləri təbii ki, bir jurnal yazısında sadalamaq qeyri-mümkündür. Əslində buna ehtiyac da yoxdur.*

Bunun üçün nə qədər gərgin məşqlər, sonu fərəhlə bitən axtarışlar aparılıb...

Maraqlıdır ki, dünyada bu qədər məşhur olan dahi bəstəkarımız musiqini hələ 7 yaşından öyrənməyə başlayıb. Qara Qarayev xatirələrində belə yazırdı: "Yadımdadır o illər musiqi dərsini heç xoşlamazdım. Ancaq evdə bu fənnə daha ciddi yanaşmağımı təkid edərdilər. Sonralar hər şey əksinə oldu. Qəribədir, heç gözləmədiyim halda musiqiyə könül verdiyim vaxtda atam mənə yanaşdı: "Ömrünü musiqiyə həsr etməyin düz deyil, həkim olsan daha yaxşıdır" dedi. Artıq məni saxlamaq mümkün deyildi. 16-17 yaşlarında musiqi yazmağa başladım. Bəxtim gətirdi. Üzeyir Hacıbəyovun sinfində oxuyurdum..."

İlk musiqi təhsilini Azərbaycan Dövlət Konservatoriyası nəzdindəki fəhlə fakültəsində almışdır. 1933–1938-ci illərdə həmin konservatoriyada oxumuşdur. Bəstəkarlıq üzrə R.L.Rudolfdan, Azərbaycan xalq musiqisinin əsasları üzrə Ü.Hacıbəyovdan dərs almışdır. 1946-cı ildə P.İ.Çaykovski adına Moskva Konservatoriyasını (D.D.Şostakoviçin bəstəkarlıq sinfini) bitirmişdir.

Gənc musiqiçi öz qarşısına müxtəlif məqsəd və vəzifələr qoyur. O, Azərbaycan xalq musiqisini – aşıq havalarını və muğamları böyük həvəslə toplayıb nota köçürür. Dünya musiqi mədəniyyətinin incilərini qeyri-adi maraqla dinləyib öyrənir. Elə buna görə də onun əsərləri bənzərsiz yaradıcılıq nümunələri kimi diqqətəlayiq idi.

O, tezliklə tanındı, yaradıcılıq sevincini, dinləyici məhəbbətini lap erkən duydu. 1938-ci ilin baharında Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyünün yekun konsertində 20 yaşlı bəstəkarın öz doğma, çiçəklənən yurduna həsr etdiyi nikbin işıqlı odası – "Könül mahnısı" kantatası səsləndi.

Təhsil illərində "Könül mahnısı" kantatasını (1938), 1-ci və 2-ci simfoniyasını (1943, 1946), xalqımızın Böyük Vətən müharibəsi illərində göstərdiyi qəhrəmanlıq mübarizəsini əks etdirən "Vətən" operasını (1945, C.Hacıyevlə birgə) yazmışdır. 40-cı illərin ikinci yarısı Q.Qarayevin yaradıcılığında yetkinləşmə dövrüdür. Milli musiqi ilə klassik və müasir musiqi üslublarının üzvü birliyi, mövzuların romantik şərhi dövr yaradıcılığı üçün xarakterikdir. Zərif musiqisi olan simli kvartetində (1947) aşıq və muğam sənəti xüsusiyyətləri öz əksini tapmışdır. Melodik dilininin səlisliyi və ifadəliliyi ilə səciyyələnən "Leyli və Məcnun" simfonik poemasında Nizaminin eyniadlı əsərinin humanist ideyası ustalıqla verilmişdir. "Mən sizi sevirdim", "Gürcüstan təpələrində" romanslarında A.S.Puşkinin şerlərinin psixoloji aləmi real təcəssüm olunmuşdur. Qara Qarayevin "Yeddi gözəl" baleti (1952, Nizaminin eyniadlı poeması üzrə) musiqimizin

yüksək nailiyyətidir. Baletdə milli musiqinin məqam – intonasiya sistemi və janr xüsusiyyətlərindən məharətlə istifadə olunmuşdur.

"İldırımlı yollarla" baleti (1958, P.Abrahamsın eyniadlı romanı üzrə) Q. Qarayevin yaradıcılığında yeni mərhələdir. O bu janrda ilk dəfə olaraq müasir dövrdə Cənubi Afrika xalqlarının azadlıq mübarizəsini təsvir etmiş, zəngin obrazlar yaratmışdır. Qara Qarayev Cənubi Afrika musiqi folkloruna həssaslıqla yanaşmış, onu müasir musiqinin mürəkkəb ifadə vasitələri ilə işləmişdir.

Q.Qarayev bir sıra dram tamaşalarına və kinofilmə musiqi bəstələmişdir: "Rəqs müəllimi" (1949, Lope De Veqa), "Nikbin faciə" (1956, V.Vişnevski), "Qəribə adam" (1956, N.Hikmət), "Antoni və Kleopatra" (1956, V.Şekspir) dramları, "Xəzər neftçiləri haqqında dastan" (1953), "Tarixin ibrət dərsi (1957), "Uzaq sahillərdə" (1958), "Mateo Falkone" (1961), "Qoyya" (1971) və s. filmləri.

Qara Qarayev kütləvi mahnı və estrada musiqisi janrlarında da əsərlər yazmışdır. Onun yaradıcılığında ideya-fəlsəfi məzmun əsas yer tutur. İnsanın gözəllik uğrunda mübarizəsi onun musiqisinin əsas mövzusudur.

Q. Qarayevin musiqisində janr lövhələri ilə epiklik, psixologizm ilə faciəvi pafos, lirika və qrotesk vahid dramaturji konsepsiyaya tabe olmaqla vəhdət təşkil edir. Onun novatorluq axtarışları xalqımızın musiqi təfəkkürü xüsusiyyətlərinə, eləcə də ötən əsrlərin bəstəkarlıq məktəbləri və musiqi cərəyanlarının ən yaxşı nailiyyətlərinə əsaslanır.

Bəstəkarlardan A.Babayev, H.Xanməmmədov, R.Hacıyev, A.Məlikov, X.Mirzəzadə, V.Adıgözəlov və başqaları əvəzsiz sənətkarın yetirmələridir.

Qara Qarayevin bütün uğurlarını nə zəmanəmizin ən nəhəng bəstəkarı Üzeyir Hacıbəyov, nə də atası görkəmli pediatr Əbülfəz Qarayev gördü. Müəllimi vəfat edərkən Qaranın 30, atası həyatdan köçərkən isə 34 yaşı vardı. Amma o 30-34 yaşlarında da çox iş görmüşdü. Bu niyyətin ata və müəllim qəlbində doğurduğu iftixar hissinin nə dərəcədə böyük olduğunu indi aradan uzun illər keçəndən sonra sözlə ifadə etmək çox çətindir. Bu yerdə yenə Qara Qarayevin müəllimi haqqında söylədiyi qiymətli fikirlər köməyimizə çatır. Düşünürük ki, tələbə-müəllim münasibətlərindəki bu saf duyğu qarşılıqlı olmuşdur. Q.Qarayev yazırdı: "Üzeyir Hacıbəyovun öz xalqı üçün etdiklərini bir cümlə ilə ifadə etmək çox çətindir. Əgər onun musiqimiz sahəsindəki xidmətlərini bir cümlə ilə ifadə etməli olsaq, deməliyik ki, Üzeyir Hacıbəyov Azərbaycan musiqi mədəniyyətinin atasıdır".

Qara Qarayev haqqında (o vaxt 38 yaşı vardı) müəllimi D.D.Şostakoviçin fikirləri də çox maraqlıdır. Tələbəsi haqqında o, iftixarla danışardı: "Qara Qarayev zəmanəmizin elə görkəmli bəstəkarlarından, elə parlaq simalarındandır ki, onun istedad və sənətkarlığı müsiqi sənətinin inkişaf yollarını müəyyən edir. O, sənətdə prinsipiаl və cəsarətlidir. Əldə olunmuş nailiyyətlərlə kifayətlənmək onun təbiətinə yaddır. Əksinə, hər bir böyük sənət qələbəsi onu musiqi sənətində əvvəllər görünməmiş təsirli, ecazkar cəhətləri açmaq imkanları verir..."

Əslində bu, Qara Qarayevin haqqında yalnız müəlliminin deyil, bütövlükdə onu tanıyanların hamısının ürək sözüdür.

Yaşar VƏLİYEV